*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2014-cü il 29 may tarixli 1/14 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Bələdiyyə seçkilərində səsvermənin nəticələri haqqında dairə seçki komissiyası protokolunun doldurulması qaydasına dair

# İ Z A H

Bələdiyyə seçkilərində səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının protokolunun (bundan sonra – protokol) doldurulması qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 100-cü, 107-ci və 238-ci maddələrinə, habelə bu İzaha uyğun olaraq müəyyənləşdirilir.

## 1. Ümumi müddəalar

1.1. Seçki dairəsi üzrə səsvermənin nəticələri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) tərəfindən təsdiq edilmiş formaya uyğun olan və hər bir nüsxəsi müxtəlif rəngdə olmaqla 3 nüsxədən ibarət karbonlaşdırılmış kağızdan buklet formasında hazırlanmış protokolda (bu İzaha 1 saylı əlavə) əlyazısı qaydasında qeyd olunur.

1.1.1. Protokol yalnız həmin komissiyanın həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilməlidir.

1.1.2. Protokol tərtib edilərkən hər bir bəndin məlumatı ayrı-ayrılıqda yazılır, saylar sözlə və rəqəmlə göstərilir.

1.1.3. Protokolun karandaşla yazılmasına və onda hər hansı bir düzəliş edilməsinə icazə verilmir. Buna görə də, əvvəlcə protokolun **q a r a l a m a** nüsxəsi tərtib edilməlidir.

1.2. Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının protokollarının 1-ci nüsxələri və onlara əlavə edilmiş digər müvafiq sənədlər məntəqə seçki komissiyalarının sədrləri və müxtəlif siyasi partiyaları təmsil edən iki üzvü tərəfindən dairə seçki komissiyasının sədrinə təqdim edildikdən dərhal sonra, dairə seçki komissiyası sədrinin tapşırığı ilə dairə seçki komissiyasının üzvləri bu sənədlərin Seçki Məcəlləsinin 106.7-ci maddəsinin tələblərinə cavab verib-verməməsini, səsvermənin nəticələrində uyğunsuzluğun olub-olmamasını yoxlayırlar. Bundan sonra səslərin hesablanmasına aid məlumatlar müvafiq bələdiyyələr üzrə səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının yekun protokoluna daxil edilir.

1.3. Dairə seçki komissiyasının protokolu məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında səsvermə günündən 2 gün keçənədək tərtib edilir. Göstərilən məlumatların ümumiləşdirilməsi fasiləsiz aparılır.

## 2. Protokolun doldurulma ardıcıllığı

**2.1. Dairə seçki komissiyasında səsvermənin nəticələri haqqında yekun protokol tərtib edilərkən protokoldakı** "Dairə seçki komissiyası səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək seçki dairəsindəki müvafiq bələdiyyə üzrə səsvermənin nəticələrini müəyyən etmişdir" **cümləsindən sonra gələn aşağıdakı bəndlər müvafiq ardıcıllıqla doldurulmalıdır:**

**2.1.1.** ***"bələdiyyə üzrə məntəqə seçki komissiyalarının sayı"*** sətrində müvafiq bələdiyyə üzrə mövcud olan və yeni yaradılmış seçki məntəqələrinin sayı göstərilir;

**2.1.2.** ***"məntəqə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı"*** sətrində müvafiq bələdiyyə üzrə səsvermənin baş tutmadığı seçki məntəqələri istisna olmaqla, digər məntəqə seçki komissiyalarından təqdim edilmiş protokolların sayı göstərilir;

**2.1.3.** ***"dairə seçki komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş məntəqə seçki komissiyaları protokollarının sayı"*** sətrində müvafiq bələdiyyə üzrə səsvermənin baş tutduğu seçki məntəqələrindən daxil olan protokolların sayı göstərilir *(səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələri məntəqə seçki komissiyalarının təqdim etdikləri protokollar istisna olunmaqla)*;

***2.1.4. "səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı"*** sətrində müvafiq bələdiyyə üzrə səsvermənin baş tutduğu, lakin səsvermənin nəticəsi etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı göstərilir;

**2.1.5.** ***"səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı"*** sətrində müvafiq bələdiyyə üzrə təbii fəlakət, qarşısı alına bilinməyən digər hadisələrin baş verməsi nəticəsində, habelə seçkilərin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı yol verilmiş qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə və ya məhkəmənin qərarı olduqda səsvermənin nəticələri haqqında yekun protokolunun tərtib edilmədiyi seçki məntəqələrinin sayı göstərilir;

2.2. Protokol aşağıdakı qaydada doldurulmalıdır:

***2.2.1. Protokolun 1-ci bəndi*** **– bələdiyyə üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayı**

**(1=1a+1b):**

2.2.1.1. a) seçici siyahılarında olan seçicilərin sayı;

2.2.1.2. b) əlavə seçici siyahılarında olan seçicilərin sayı.

*(Məntəqə seçki komissiyaları protokollarının 1-ci bəndinin müvafiq olaraq “a” və “b” yarımbəndlərində göstərilən rəqəmlərin cəmi bu protokolun 1-ci bəndinin müvafiq yarımbəndlərində qeyd edilir. Həmin rəqəmlərin cəmi bu protokolun 1-ci bəndinin rəqəmini verir və bu rəqəm müvafiq qrafaya yazılır).*

***2.2.2. Protokolun 2-ci bəndi* – qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı**

*(Məntəqə seçki komissiyaları protokollarının 2-ci bəndindəki rəqəmlər cəmlənərək bu bənddə qeyd olunur).*

***2.2.3. Protokolun 3-cü bəndi* – dairə seçki komissiyasından bələdiyyə üzrə məntəqə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin sayı**

**(3=4+5+6)**

*(Məntəqə seçki komissiyalarının müvafiq bələdiyyə üzrə protokollarının 3-cü bəndindəki rəqəmlərinin cəmi bu bənddə qeyd edilir. Bu rəqəm dairə seçki komissiyasından müvafiq bələdiyyə üzrə məntəqə seçki komissiyalarına müvafiq aktlar tərtib edilməklə verilmiş seçki bülletenlərinin sayına bərabər olmalıdır (əgər dairə seçki komissiyasının protokolu tərtib edilərkən seçki dairəsinə müvafiq bələdiyyə üzrə aid olan seçki məntəqələrinin hamısından daxil olmuş protokollar əsas götürülmüşdürsə).*

*Mötərizədəki hesablamada (3=4+5+6) göstərildiyi kimi, bu bəndin rəqəmi protokolun 4-cü (seçki bülleteni almış seçicilərin sayı), 5-ci (istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı) və 6-cı (korlanmış seçki bülletenlərinin sayı) bəndlərindəki rəqəmlərin cəminə bərabər olmalıdır.*

***2.2.4. Protokolun 4-cü bəndi* – seçki bülleteni almış seçicilərin sayı**

**(4=4a+4b+4c):**

2.2.4.1. a) səsvermə otaqlarından kənarda;

2.2.4.2. b) səsvermə otaqlarında – seçici siyahıları əsasında *[daimi (və ya müvəqqəti) və əlavə seçici siyahılarında olan imzaların sayı];*

2.2.4.3. c) səsvermə otaqlarında – qeydiyyatdan çıxma vəsiqəsi ilə.

*(Məntəqə seçki komissiyaları protokollarının 4-cü bəndinin “a”, “b” və “c” yarımbəndlərində göstərilən rəqəmlərin cəmi bu protokolun 4-cü bəndinin müvafiq yarımbəndlərində qeyd edilir. Həmin rəqəmlərin cəmi protokolun 4-cü bəndinin rəqəmini verir və bu rəqəm müvafiq qrafaya yazılır).*

***2.2.5. Protokolun 5-ci bəndi* – istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı**

*(Məntəqə seçki komissiyaları protokollarının 5-ci bəndindəki rəqəmlərin cəmi bu bənddə qeyd edilir).*

***2.2.6. Protokolun 6-cı bəndi* – korlanmış seçki bülletenlərinin sayı**

*(Məntəqə seçki komissiyaları protokollarının 6-cı bəndindəki rəqəmlərin cəmi bu bənddə qeyd olunur).*

***2.2.7. Protokolun 7-ci bəndi* – seçki qutularında olan seçki bülletenlərinin sayı *(müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri* [1] *istisna edilməklə)***

**(7=7a+7b); (7≤4); (7=8+9):**

2.2.7.1. a) daşınan seçki qutularında **(7a≤4a);**

2.2.7.2. b) daşınmaz seçki qutularında **(7b≤4b+4c)**.

*(Məntəqə seçki komissiyaları protokollarının 7-ci bəndinin "a" və "b" yarımbəndlərində göstərilən rəqəmlərin cəmi bu protokolun 7-ci bəndinin müvafiq yarımbəndlərində qeyd edilir. Həmin rəqəmlərin cəmi protokolun 7-ci bəndinin rəqəmini verir və bu rəqəm müvafiq qrafaya yazılır. Protokolun 7a yarımbəndindəki rəqəm protokolun 4a yarımbəndindəki rəqəmdən, 7b yarımbəndindəki rəqəm isə 4b və 4c yarımbəndlərindəki rəqəmlərin cəmindən az və ya onlara bərabər olmalıdır. Mötərizədə verilmiş kiçik bərabərlikdə (7≤4) göstərildiyi kimi, 7-ci bəndin rəqəmi protokolun 4-cü bəndindəki rəqəmdən az və ya ona bərabər olmalıdır. 7-ci bəndin rəqəmi protokolun 8-ci (etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı) və 9-cu (etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı) bəndlərindəki rəqəmlərin cəminə bərabər olmalıdır (7=8+9)).*

***2.2.8. Protokolun 8-ci bəndi* – etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı (namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamış və ya seçilməli olan bələdiyyə üzvlərinin sayından çox işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı).**

*(Məntəqə seçki komissiyaları protokollarının 8-ci bəndindəki rəqəmlərin cəmi bu bənddə qeyd edilir).*

***2.2.9. Protokolun 9-cu bəndi* – etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı (namizədlərin soyadlarından sağdakı kvadratlarda seçilməli olan bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı).**

(Məntəqə seçki komissiyaları protokollarının 9-cu bəndindəki rəqəmlərin cəmi bu bənddə qeyd edilir).

***2.2.10. Protokolun 10-cu bəndi* – etibarlı hesab edilmiş səslərin sayı**

---

[1] *Səslər hesablanarkən seçki qutularından çıxmış müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri sayılaraq aktlaşdırılır və həmin akt bu protokola əlavə edilir.*

**(qanunauyğun doldurulmuş müəyyənləşdirilmiş formada olan etibarlı hesab edilmiş seçki bülletenlərindəki səslərin sayı)**

**(10=11)**

*(Məntəqə seçki komissiyaları protokollarının 10-cu bəndindəki rəqəmlərin cəmi bu bənddə qeyd edilir. Mötərizədə verilmiş bərabərlikdə (10=11) göstərildiyi kimi bu bəndin rəqəmi 11-ci (etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi) bəndin cəminə bərabər olmalıdır).*

***2.2.11. Protokolun 11-ci bəndi* – etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi**

*(Protokolun bu bəndində seçki bülleteninə daxil edilmiş bələdiyyə üzvlüyünə namizədlərin soyadı, adı, atasının adı [2] seçki bülletenindəki ardıcıllıqla əlifba sırası ilə yazılır və hər bir namizədin lehinə verilmiş səslərin sayı sözlə və rəqəmlə göstərilir. Məntəqə seçki komissiyalarının protokollarındakı hər bir namizədin lehinə verilmiş səslərin cəmi dairə seçki komissiyasının protokolunda həmin namizədin lehinə verilmiş səslərin sayı qrafasında sözlə və rəqəmlə qeyd edilir. Cədvəlin sonunda səslərin cəmi yazılır və bu rəqəm protokolun 10-cu bəndinə (etibarlı hesab edilmiş səslərin sayına) bərabər olmalıdır. Bu sayda bərabərlik olmazsa, protokol etibarsız sayılır).*

***2.2.12. Protokolun 12-ci bəndi* – bələdiyyə üzvü seçilmiş namizədlər**

2.2.12.1. Protokolun bu bəndində bələdiyyə üzvlüyünə seçilmiş namizədlərin soyadı, adı, atasının adı qeyd edilir.

2.2.12.2. Seçkilərdə iştirak etmiş və seçicilərin ən çox səsini toplamış namizədlər bələdiyyə üzvlərinin sayına bərabər olaraq müvafiq bələdiyyəyə üzv seçilmiş hesab edilirlər.

2.3. Protokol tam doldurulub qurtardıqdan sonra doldurulma tarixi və vaxtı həmin protokolda qeyd edilir.

2.4. Səsvermənin nəticələri haqqında yekun protokolu dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Protokolun komissiya üzvləri tərəfindən boş və ya tam doldurulmamış halda imzalanması qadağandır. Protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan dairə seçki komissiyasının üzvü

---

[2] *Seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı eyni olduqda, onların doğulduqları gün, ay, il də göstərilməlidir.*

protokolu imzalayaraq ona özünün xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

## 3. Əlavə edilməli olan sənədlərlə birlikdə protokolun Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi

3.1. Aşağıda göstərilən seçki sənədləri Seçki Məcəlləsinin 107.4-cü maddəsinə uyğun olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının yekun protokoluna əlavə edilərək dərhal, lakin səsvermə günündən 2 gündən gec olmayaraq dairə seçki komissiyasının sədrinin və müxtəlif siyasi qüvvələri təmsil edən iki üzvünün müşayiəti ilə Mərkəzi Seçki Komissiyasına göndərilir:

3.1.1. dairə seçki komissiyası protokolunun 1-ci nüsxəsi;

3.1.2. səsvermə günü dairə seçki komissiyasına seçki hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş şikayətlər (ərizələr) və bunlar üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərarlar;

3.1.3. bələdiyyə seçkilərində seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyasına verilməsi haqqında akt (İzaha 2 saylı, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) seçki bülletenlərinin (referendum üzrə səsvermə bülletenlərinin), dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının və səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin hazırlanması və müvafiq seçki komissiyalarına verilməsi qaydaları haqqında" Təlimata 5 saylı əlavə);

3.1.4. bələdiyyə seçkilərində istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında akt (İzaha 3 saylı əlavə);

3.1.5. bələdiyyə seçkilərində istifadə edilməmiş səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ləğv edilməsi haqqında akt (İzaha 4 saylı əlavə).

3.2. 3.1.4-cü və 3.1.5-ci bəndlərdə göstərilən aktlar dairə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır.

3.3. Şikayətlərin (ərizələrin), dairə seçki komissiyası qərarlarının və yuxarıda adları çəkilən aktların təsdiq edilmiş surətləri protokolun 2-ci nüsxəsinə tikilir.

**Qeyd: 1.** *Məntəqə seçki komissiyasının protokolu tərtib edilən zaman ehtiyatsızlıqdan hər hansı bir xətaya (məlumatların səhv daxil edilməsi, pozulma, qaralama və s.) yol verilmişdirsə və bunun nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün deyilsə, müvafiq dairə seçki komissiyası protokolu qəbul etdikdən sonra həmin məntəqədə səslərin yenidən hesablanması haqqında qərar qəbul etməlidir. Səslərin yenidən hesablanması dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən aparılır, onlar tərəfindən həmin məntəqə üzrə səsvermənin nəticələrinə dair protokol tərtib edilərək imzalanır, dairə seçki komissiyasının möhürü ilə möhürlənir və həmin protokolda "səslərin təkrar hesablanması" sözləri qeyd edilir. Bu protokola məntəqə seçki komissiyasının protokolu da əlavə edilir. Dairə seçki komissiyasının yekun protokoluna həmin məntəqə üzrə dairə seçki komissiyası tərəfindən tərtib edilmiş protokoldakı məlumatlar daxil edilir.*

**Qeyd: 2.** *Dairə seçki komissiyasının protokolu tərtib edilərkən, ehtiyatsızlıqdan*

*həmin protokolda hər hansı bir xətaya (məlumatların səhv daxil edilməsi, pozulma, qaralama və s.) yol verilmişdirsə, dairə seçki komissiyası həmin halı öz qərarı ilə rəsmiləşdirərək, buna dair müvafiq akt tərtib etməli, protokolu həmin aktla birlikdə qanunda nəzərdə tutulmuş müddət ərzində Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir.*

## 4. Yekun müddəa

4.1. Bu İzah qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli, 23-9 saylı Qərarı ilə təsdiq edilmiş “Bələdiyyə seçkilərində səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının protokolunun doldurulması qaydasına dair İzah” qüvvədən düşmüş hesab edilir.

*İzaha 1 saylı əlavə*

## AZƏRBAYCAN RESPUBLİKASINDA BƏLƏDİYYƏ SEÇKİLƏRİ

"____" _______________ 20 ___ il

____ saylı ________________________________ seçki dairəsi üzrə
*(seçki dairəsinin adı)*

________________________________________ bələdiyyəsinə
*(bələdiyyənin adı)*

seçkilərdə səsvermənin nəticələri haqqında

**dairə seçki komissiyasının**

## P R O T O K O L U

______________________________________________________________
*(DSK-nın olduğu yer – muxtar respublika, şəhər, rayon, şəhərdə rayon, qəsəbə, kənd)*

Dairə seçki komissiyası səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək seçki dairəsindəki müvafiq bələdiyyə üzrə səsvermənin nəticələrini müəyyən etmişdir:

Bələdiyyə üzrə məntəqə seçki komissiyalarının sayı

____________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

Məntəqə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı

____________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

Dairə seçki komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş məntəqə seçki komissiyaları protokollarının sayı

____________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı

____________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı

____________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

1. Bələdiyyə üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayı **(1=1a+1b):**

____________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

a) seçici siyahılarında olan seçicilərin sayı

________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

b) əlavə seçici siyahılarında olan seçicilərin sayı

________________________________________ [ ]
*(sözlə)* *(rəqəmlə)*

2. Qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

3. Dairə seçki komissiyasından bələdiyyə üzrə məntəqə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin sayı **(3=4+5+6)**

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

4. Seçki bülletenləri alan seçicilərin sayı **(4=4a+4b+4c):**

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

a) səsvermə otaqlarından kənarda

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

b) səsvermə otaqlarında – *seçici siyahıları əsasında [daimi (və ya müvəqqəti) və əlavə seçici siyahılarında olan imzaların sayı]*

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

c) səsvermə otaqlarında – qeydiyyatdan çıxma vəsiqəsi ilə

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

5. İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

6. Korlanmış seçki bülletenlərinin sayı

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

7. Seçki qutularında olan seçki bülletenlərinin sayı *(müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri*[3] *istisna edilməklə)* **(7=7a+7b); (7≤4); (7=8+9):**

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

a) daşınan seçki qutularında **(7a≤4a)**

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

b) daşınmaz seçki qutularında **(7b≤4b+4c)**

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

8. Etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı *(namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamış və ya seçilməli olan bələdiyyə üzvlərinin sayından çox işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı)*

______________________________ [    ]

*(sözlə)* *(rəqəmlə)*

---

[3] Müəyyənləşdirilmiş formada olmayan seçki bülletenlərinin sayına dair MnSK-lar tərəfindən tərtib edilmiş aktlardakı məlumatların ümumiləşdirilməsi nəticəsində DSK tərəfindən müvafiq akt tərtib edilərək, MnSK aktları ilə birlikdə bu protokola əlavə edilir.

9. Etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı *(namizədlərin soyadlarından sağdakı kvadratlarda seçilməli olan bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az işarə qoyulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı)*

| | |
|---|---|
| *(sözlə)* | *(rəqəmlə)* |

10. Etibarlı hesab edilmiş səslərin sayı (*qanunauyğun doldurulmuş müəyyənləşdirilmiş formada olan seçki bülletenlərindəki səslərin sayı)* **(10=11)**

| | |
|---|---|
| *(sözlə)* | *(rəqəmlə)* |

11. Etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi:

| Sıra sayı | Seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı[4] (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | |
|---|---|---|---|
| | | sözlə | rəqəmlə |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

[4] Seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı eyni olduqda, onların doğulduqları il, ay və gün də göstərilməlidir.

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | Cəmi: | | |

12. Bələdiyyə üzvü seçilmiş namizədlər (seçilməli olan üzvlərin sayı) :

1. ______________________________
*(soyadı, adı, atasının adı)*
2. ______________________________
3. ______________________________
4. ______________________________
5. ______________________________
6. ______________________________
7. ______________________________
8. ______________________________
9. ______________________________
10. ______________________________
11. ______________________________
12. ______________________________
13. ______________________________
14. ______________________________
15. ______________________________
16. ______________________________
17. ______________________________
18. ______________________________
19. ______________________________

**Komissiyanın sədri** ______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Komissiyanın katibi** ______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Komissiyanın katibi** ______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Komissiyanın üzvləri** ______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

M.Y.

______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

______________________________ ____________
*(soyadı, adı, atasının adı)* *(imza)*

Protokol 20___ il _______________ _____-da(də) saat ____-da(də) tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd: _____________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
____________________________________________________________________

| _____________________________________________ | _________________ |
|---|---|
| *(soyadı, adı, atasının adı)* | *(imza)* |

**Q e y d l ə r:**

Protokol dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Dairə seçki komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

Protokolda düzəlişlər edilməsinə icazə verilmədiyinə görə əvvəlcə protokolun qaralama nüsxəsini tərtib etmək məqsədəuyğundur.

Protokolun karandaşla yazılmasına icazə verilmir.

*İzaha 2 saylı, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) seçki bülletenlərinin (referendum üzrə səsvermə bülletenlərinin), dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının və səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin hazırlanması və müvafiq seçki komissiyalarına verilməsi qaydaları haqqında" Təlimata 5 saylı əlavə*

**Azərbaycan Respublikasında keçirilən** ______________________________

(*seçkinin (referendumun) adı)*

**üzrə seçki bülletenlərinin (referendum üzrə səsvermə bülletenlərinin) Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyasına verilməsi haqqında**

**A K T**

Bakı şəhəri "_____"___________ 20 ____ il

Saat _______

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 99.6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən _____ saylı ______________________________ seçki dairəsinin dairə seçki

*(seçki dairəsinin adı)*

komissiyasına həmin seçki dairəsinin seçki məntəqələri üzrə seçici siyahılarındakı seçicilərin ümumi sayına uyğun olaraq, ______________

*(sözlə)*

___________________ ____________________ və həmin saydan 3 (üç) faiz

*(rəqəmlə)*

___________________________________ ________________ artıq olmaqla,

*(sözlə)* *(rəqəmlə)*

____________________ nömrədən __________________ nömrəyədək, cəmi

_______________________________ ________________ ədəd seçki bülleteni

*(sözlə)* *(rəqəmlə)*

(referendum üzrə səsvermə bülletenləri) verildi.

**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının**
**katibi** ___________ ____________________

*(imza)* *(inisialı və soyadı)*

**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının**
**üzvü** ___________ ____________________

*(imza)* *(inisialı və soyadı)*

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri** ____________ ______________________

*(imza)* *(inisialı və soyadı)*

M.Y.

**Dairə seçki komissiyasının sədri** ____________ ______________________

*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** ____________ ______________________

*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** ____________ ______________________

*(imza)* *(inisialı və soyadı)*

M.Y.

**Qeyd:** *referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*İzaha 3 saylı əlavə*

**Bələdiyyə seçkilərində istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında**

**A K T**

______________________________ "___" ________ 20___ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat _______

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, ______ saylı ______________________________________________ seçki dairəsinin
*(seçki dairəsinin adı)*

dairə seçki komissiyası tərəfindən __________________________________
*(sözlə)*

_______________________ ədəd istifadə edilməmiş seçki bülleteni qanunla
*(rəqəmlə)*

müəyyən olunmuş qaydada ləğvetmə xəttindən kəsilməklə ləğv edilmişdir.

**Dairə seçki komissiyasının sədri** ______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** ______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** ______________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

*İzaha 4 saylı əlavə*

**Bələdiyyə seçkilərində istifadə edilməmiş səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ləğv edilməsi haqqında**

**A K T**

______________________________ "___" ________ 20_____ il
*(rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Saat _______

Biz, aşağıda imza edənlər, həmin aktı ona görə tərtib etdik ki, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasından ________ saylı ______________________________________ seçki dairəsinin dairə seçki
*(seçki dairəsinin adı)*
komissiyasına verilmiş ____________________________ _____________
*(sözlə)* *(rəqəmlə)*
ədəd səsvermə vəsiqəsindən ____________________________________
*(sözlə)*
_____________ ədədi istifadə edilmişdir.
*(rəqəmlə)*
İstifadə edilməmiş _____________________________ ___________ ədəd
*(sözlə)* *(rəqəmlə)*
qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi yarı kəsilməklə ləğv olunmuşdur.

**Dairə seçki komissiyasının sədri** ______________ __________________
*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** ______________ __________________
*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** ______________ __________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.